

İqtisadi İslahatların
Təhlili və Kommunikasiya
Mərkəzi

# İXRAC İCMALI

Fevral 2026

www.ereforms.gov.az
info@ereforms.gov.az

## XÜSUSİLƏ BİZİM SƏNAYE İNKİŞAFI İLƏ BAĞLI BÖYÜK PLANLARIMIZ VAR.

Xüsusilə bizim sənaye inkişafı ilə bağlı böyük planlarımız var. Həm əhali artır, həm sənaye istehsalı xüsusilə qeyri-neft sektorunda artır və bu ilin yanvar ayında qeyri-neft sənayemiz təqribən 8 faiz artmışdır. Ona görə bizim enerji güclərimiz ölkənin inkişafını dəstəkləməlidir.

Eyni zamanda, bildiyiniz kimi, xarici tərəfdaşlarla yaşıl enerji kabellərinin çəkilişi ilə bağlı müvafiq sənədlər imzalanıb və biz elektrik enerjisinin bir qismini ixrac edəcəyik. Ancaq data mərkəzlərinin yaradılması da dediyim kimi, böyük enerji güclərini tələb edir.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 11 fevral 2026-cı il tarixində "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədəki çıxışından**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2026-cı ilin yanvar ayı ərzində qeyri-neft-qaz ixracı 268,4 milyon ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar ayı ərzində yeyinti məhsullarının ixracı 103 milyon ABŞ dolları olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın növbəti sayını təqdim edib. İcmala əsasən, 2026-cı ilin yanvar ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə **9%** artaraq **268,4 milyon** ABŞ dolları təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac **22,6%** artaraq **103 milyon** ABŞ dollarına bərabər olub.

Cari ilin birinci ayında  ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən **169,3%**, pambıq iplik **137,6%**, bitki və heyvan mənşəli piylər və yağlar **90,8%**, alüminium və onlardan hazırlanan məmulatlar **39,5%**, meyvə-tərəvəz **32,1%**, pambıq lifi **23,2%**, çay **20,9%**, spirtli və spirtsiz içkilər **14,2%** artıb.

2026-cı ilin yanvar ayında aqrar məhsullar üzrə ixrac **32,6%** artaraq **85,7 milyon** ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac **21,9 milyon** ABŞ dollarına bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye

məhsullarının birgə ixracı **23,8%** artaraq **107,6 milyon** ABŞ dolları təşkil edib.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**33 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda qabığı təmizlənmiş meşə fındığı (**29,3**) ikinci, xurma (təzə) (**22,3**) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin yanvar ayında Rusiya Federasiyasına **77 milyon** ABŞ dolları, İsveçrəyə **38,6 milyon** ABŞ dolları, Gürcüstana **31,6 milyon** ABŞ dolları, Türkiyəyə **31,5 milyon** ABŞ dolları, Ukraynaya isə **15,2 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.



# 2026-CI İLİN YANVAR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026 İXRAC İCMALI fevral

2025 | 2026

+9%

**2025: 246.1 mln**

**2026: 268.4 mln**



İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

2026
İXRAC
İCMALI
fevral

# 2026-CI İLİN YANVAR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)




İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN YANVAR AYI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2025-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2026 İXRAC İCMALI fevral

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

2024/2025 **+23.8%**

**107.6 mln $**



2025/2026 **+32.6%**

**85.7 mln $**

**21.9 mln $**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2026-CI İLİN YANVAR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI fevral

| Mal | 2026 | 2025 |
|---|---|---|
| Qızıl | 33 | 21.1 |
| Meşə fındığı | 29.3 | 13.9 |
| Xurma | 22.3 | 19.3 |
| Mis filizləri və konsentratları | 20.5 | 2.4 |
| Karbamid | 14.2 | 21 |
| Tomat (pomidor) | 13.6 | 14.7 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | 11.2 | 9.2 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 8.3 | 7.9 |
| Alma | 8.2 | 6.9 |

# 2026-CI İLİN YANVAR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI fevral

| | 2026 | 2025 |
|---|---|---|
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 7.6 | 4.6 |
| PE İlkin formalı propilen sopolimerləri | 4.8 | 4.8 |
| Aşqarlanmamış alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr | 4 | 0.4 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 3.8 | 1.4 |
| Sement klinkerləri | 3 | 3.9 |
| Şəkər və şirinləşdirici əlavə edilmiş alkoqolsuz energetik içkilər | 3 | 2.4 |
| Emal olunmamış alüminium ərintiləri | 2.8 | 3.2 |
| Tərkibində 55 kütlə %-dən çox silisium olan ferrosilisium ərintiləri | 2.8 | 1.4 |
| PP İlkin formalı polipropilen | 2.5 | 5.8 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2026-cı ilin yanvar ayı üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “AGRARCO” MMC, "Prime Cotton” MMC, "Baku Steel Company" QSC, “Prime LM" MMC, "KHAN-EL" MMC, “Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, “AFA Export” MMC, "P-AQRO" MMC, "Mors Trading" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına “AzerGold” QSC  başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar:  “SOCAR Polymer” MMC, ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, “Azəralüminium” MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Naxçıvan Enerji" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Sənayecihaz" EİM, “SOCAR CAPE” MMC, "Qaradağ Şüşə Zavodu" ASC, "Azərxalça" ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2026-CI İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ
(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2026-CI İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




* "AzərGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

** "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2026-cı ilin yanvar ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) 1,5 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2026-cı ilin yanvar ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 32 ölkəsinə 1,5 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65%-ni təşkil edib.

Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 348,5 min ABŞ dolları ilə Birləşmiş Krallıq, 283 min ABŞ dolları ilə Lüksemburq, 187,2 min ABŞ dolları ilə İsveç, 72,4 min ABŞ dolları ilə Türkiyə, 69,6 min ABŞ dolları ilə Pakistan qərarlaşıb.

# 2026-CI İLİN YANVAR AYINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 1,5 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 348,5 min $ | Birləşmiş Krallıq |
| 283 min $ | Lüksemburq |
| 187,2 min $ | İsveç |
| 72,4 min $ | Türkiyə |
| 69,6 min $ | Pakistan |

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat